# KULİNARİYA ÜZRƏ II RESPUBLİKA ÇEMPİONATI

Oktyabr ayının 8-dən start götürən peşə təhsili müəssisələrinin tələbələri arasında Kulinariya üzrə II Respublika Çempionatına bu ayın 12-də yekun vurulub.

Yarış Azərbaycan Milli Kulinariya Mərkəzinin yaranmasının **27 illiyi**, Dünya Kulinariya Təşkilatının **90 illik** yubileyi münasibəti ilə gənc kulinarlar arasında keçirilib. Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, Azərbaycan Dövlət Turizm Agentliyi, Milli Kulinariya Mərkəzi, Azərbaycan Milli Kulinariya Assosiasiyasının birgə təşkilatçılığı və “Azərbaycanda Peşə Təhsili və Təliminin (PTT) İnkişafına Avropa İttifaqının Dəstəyi” ilə keçirilən müsabiqədə 7 peşə təhsili müəssisəsi – Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, İctimai-İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi, İsmayıllı Peşə Tədris Mərkəzi və Dövlət Turizm Agentliyinin Bakı Turizm Peşə Məktəbinin tələbə və təlim ustalarından ibarət 7 komanda iştirak edib.

Beş gün davam edən çempionatda – plov, kabab, dolma və şirniyyat yarışları müvafiq olaraq Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində, çay süfrəsi yarışları isə Bakı Turizm Peşə Məktəbində baş tutub.

Çempionatın dörd günündə milli yeməklərin və şirniyyatların hazırlanması texnologiyasının nümayişi, beşinci gün isə sərbəst mövzuda **“Çay süfrəsi”** təqdim olunub. Beləliklə də, gənc kulinarlar mili mətbəx nümunələri, çay süfrəsinin tərtibi üzrə öz bacarıqlarını nümayiş etdiriblər.

Yarışın sonuncu günü qaliblər müəyyən olunub.

**Plov nominasiyası üzrə:**

*Bakı Turizm Peşə Məktəbi – **I yer***

*Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (5 nömrəli Bakı Peşə Liseyi) – **II yer***

*Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (13 nömrəli Bakı Peşə Məktəbi) – **III yer***

**Kabab nominasiyası üzrə:**

*Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (5 nömrəli Bakı Peşə Liseyi) – **I yer***

*İctimai-İaşə Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (18 nömrəli Bakı Peşə Liseyi) – **II yer***

*Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi – **III yer***

***Dolma nominasiyası üzrə:***

*İctimai-İaşə Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (18 nömrəli Bakı Peşə Liseyi) – **I yer***

*Bakı Turizm Peşə Məktəbi – **II yer***

*İsmayıllı Peşə Tədris Mərkəzi – **III yer***

**Şirniyyat nominasiyası üzrə:**

*Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (12 nömrli Bakı Peşə Liseyi) – **I yer***

*Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (13 nömrəli Bakı Peşə Məktəbi) – **II yer***

*Bakı Turizm Peşə Məktəbi – **III yer***

**Çay süfrəsi nominasiyası üzrə:**

*İctimai-İaşə Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (18 nömrəli Bakı Peşə Liseyi) – **I yer***

*Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (12 nömrli Bakı Peşə Liseyi) – **II yer***

*Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi (5 nömrəli Bakı Peşə Liseyi) – **III yer***



Sonda **“Qran Prix”** mükafatı Bakı Turizm Peşə Məktəbinə təqdim olunub.